# Böyük insan haqqında kiçik yazı

**Hər gün gördüyün, iş prosesində ünsiyyətdə olduğun insan haqqında yazı yazmağın bu qədər çətin olduğunu bilməzdim. Amma yadıma düşən, zaman-zaman işarəsi dediyi hansısa fikri, tövsiyəsi, bəzən əhvalatları yazmamış olsa da unudulmuş kimi görünən akademik İsa Həbibbəylinin qismən də olsa portretini canlandırmağa həvəs etdi.**

Alimin 70 illik yubileyi ilə bağlı mətbuatda dərc olunan yazıları oxuduqca düşünürəm ki, gördüyü genişmiqyaslı işlərin görünən və görünməyən tərəflərini, şəxsiyyətinə aid cizgi və detalları əks etdirən bu məqalələr, ürək sözləri İsa Həbibbəyli haqqında gələcəyə yazılmış məktublardır.

İsa Həbibbəyli ona verilən zamanın ömrünü uzadan alimdir. "Üç gecə yatmasan, bir gün qazanmış olarsan" - deyədeyə, bəzən zamanın özünü, onun ölçü meyarını - saatı, günü, ayı, həftə fəsilləri unudub, həsrət vurğunu olsa da, özünü onun gözəlliyini seyr etməkdən məhrum edib, işləyə-işləyə uzadıb zamanın ömrünü. Təkcə zamanın yox, həm də bir insan ömrünü. Bir ömrün içinə alim ömrü, müəllim ömrü, ictimai-siyasi xadim, rəhbər işçi, övlad, ata və baba ömrü sığışdırmağa uzadıb. "Gördüyüm işin mahiyyətini dərk etdiyimə görə bilirəm ki, həyatımı qurban verməyə dəyər" - desə də, əslində həyatını qurban vermir, İsa müəllim, işini həyatının mənasına çevirməyi bacarır. "Cəlil Məmmədquluzadə mənim taleyimdir" - deyib tədqiqat sahəsini taleyi ilə tən tutan akademikin ədəbiyyatşünas alim kimi fəaliyyətinə, tədqiqatlarına, monoqrafiyalarına və həmin sonuncu olan "Azərbaycan ədəbiyyatı: dövrləşdirmə konsepsiyası və inkişaf mərhələləri" kitabına nəzər yetirsək görərik ki, o, təkcə Mirzə Cəlili deyil, bütövlükdə ədəbiyyatı taleyinə, onun yazısına və mənasına çevirib.

Akademikin AMEA-nın vitse-prezidenti kimi gördüyü işlərə - "Azərbaycanda Azıx mağarası və miqrasiya axınları", "Qaynaqlı mədəniyyət: milli yaradıcılıq, dünya", "Qafqazda dövlətlərarası münasibətlər: 100 il əvvəl və müasir dövr", "Azərbaycan Xalq Cümhuriyyəti-milli dövlətçiliyin ideya əsasları və müasirlik" kimi Beynəlxalq elmi konfransları təşkil etməsi, "Ortaq türk ədəbiyyatı" dərsliyinin yazılmasında iştirakı göstərir ki, o, bir çox strateji məqamlara diqqət yönətməklə bir neçə taleyüklü məsələlərdə də özünü cavabdeh bilib. İsa müəllimin Milli Məclisin Elm və təhsil, Toponimika ko-

Ədəbiyyat İnstitutunun qapılarının həm Azərbaycanın müxtəlif bölgələrinə (Şamaxı, Şabran, Quba, Qusar, Naxçıvan), həm də dünyanın dörd tərəfinə (Latın Amerikası, Hindistan, Çin, Rusiya, Gürcüstan, Özbəkistan, Türkiyə, Almaniya, Bolqarıstan, Moldova) açılması, əməkdaşlıq müqavilələrinin imzalanması dövlət siyasətinin bir institut çərçivəsində reallaşması deməkdir.

Akademik Mahmud Kərimovun bir zamanlar ideyası alim adlandırdığı İsa müəllim bir-birindən maraqlı neçə-neçə yeni layihələrin ("Fizika və lirika", "Bədii yaradıcılıq", "Ədəbiyyatda Heydər Əliyev obrazı: tarixi gerçəklikdən ideala", "Ədəbiyyatşünaslıqda azərbaycançılıq konsepsiyası" müxtəlif jurnal və qəzetlərin Ədəbiyyat İnstitutuna həsr olunmuş xüsusi buraxılışlarının) müəllifi kimi də tarixə imza atıb.

"Taleyimin ən sevincli hadisəsi Azərbaycanın müstəqilliyini görmək olub" deyən ictimai-siyasi xadim İsa Həbibbəylinin bu sahədəki xidmətlərindən danışmasam da, Ədəbiyyat İnstitutunda rəhbərliyi və həmmüəllifliyi ilə hazırlanan üçcildlik geniş həcmli "Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı" monoqrafiyasını dövlət müstəqilliyinin 25 illiyinə akademikin ən dəyərli töhfəsi kimi qeyd etməliyəm.

İsa Həbibbəyli aid olduğu şəcərənin özünəqədərki mənsublarına dəyər verdiyi qədər özündənsonrakı nümayəndələrinə də diqqət yetirir, nəsillər arasındakı bağın, körpünün möhkəmliyinə çalışır, təqvimin əlamətdar günlərini Cəmilə ana və nəvələriylə keçirir, onları bir süfrə arxasına yığmaqla həm də ailə ənənəsinin müqəddəslik statusunu qoruyur. Burada da nümunə və örnək olmağı bacarır. Eyni həssaslığı rəhbərlik etdiyi institutda da görürük. Vaxtilə institutda çalışmış, rəhbərlik etmiş Məmməd Arif, Məmməd Cəfər Cəfərov, Məhəmmədhüseyn Təhmasib, Mirzağa Quluzadə, Kamal Talıbzadə, Yaşar Qarayevin ədəbi irsinə ehtiram göstərdiyi kimi, institutun ən gənc doktorantlarının, elmi işçilərinin məqalələri, ilk tədqiqatları haqqında xoş sözlərini cəsarətlə söyləyir.

"Əvvəl böyüklərimin, sonra özümün özümə dediyi 'olmaz-olmaz'lar məni bu günlərə gətirib çatdırıb" deyən akademik - bizə o qədər zaman verilməyib ki, onları hansısa inciklərə, çəkişmələrə, şəxsi ədavətlərə sərf edək, onlar böyük işlərimizə mane olar, deyib bir çətinlik olarkən "həll edin", "kömək edin", "çıxış yolu tapın" tapşırığını verir və beləliklə, kiçik hissələrin təsirinə qalmamağı, biz gənclərə bir nümunə olmağı bacarır.

"Cəmi 7 sinif oxuyan 96 yaşlı Zəhra ananın məntəqəyə gəlib mənə səs verməsi həyatımın ən dəyərli hədiyyəsidir" deyən və hər bir seçicisinin səsini eşidən, o səsi cavabsız qoymayan millət vəkili yaxşılıq etməyi, kömək göstərməyi bu həyatdakı missiyası, alın yazısı hesab edir.

Bir gün iş otağında vacib bir işin müzakirəsi vaxtı qar yağdığını görüb ayağa qalxan akademik pəncərəyə yaxınlaşıb seyr etməyə başladı. "Kiçik çilənin qəndi, işin çoxluğundan təbiətin varlığından zövq almağa vaxt tapmırıq" deyib yenə iş masasının arxasına, onu gözləyən neçə-neçə vacib və sayrılan qərarların, layihələrin yanına qayıtdı.

İsa müəllim, Sizə ədəbiyyatımız, elmimiz, təhsilimiz üçün gördüyünüz böyük işlərin arasında vaxt tapıb neçə-neçə çiçəkli baharın, qarlı qışın gözəlliyini duyub yaşamağı diləyirəm.

# Bakı Ali Neft Məktəbi və Yuqorsk Dövlət Universiteti arasında saziş imzalanacaq

Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov Rusiyanın Xantı-Mansiysk Muxtar Dairəsində yerləşən Yuqorsk Dövlət Universitetinin nümayəndə heyəti ilə görüşüb.

Rektor Tatyana Kaminskayanın rəhbərlik etdiyi nümayəndə heyətinin tərkibinə sözügedən universitetin gənclər siyasəti və xarici əlaqələr üzrə prorektoru Anna Brovina, tədris işləri üzrə prorektor müavini Roman Samkeviç və başqaları daxil olublar.

Görüşdə tərəflər arasında təcrübə mübadiləsi, məqsədyönlü əməkdaşlıq proqramının və təlimlər ilə elmi-pedaqoji qruplar və tələbələrin mübadiləsi, birgə elmi tədqiqatların aparılması, elmi-texniki və metodiki işləmələrin hazırlanması və s. məsələlər müzakirə olunub.

Qonaqları salamlayan rektor Elmar Qasımov Azərbaycanla Rusiya arasında bütün sahələrdə dostluq əlaqələrinin olduğunu, BANM-in Rusiyanın, eləcə də dünyanın bir sıra ali təhsil müəssisələri ilə səmərəli əməkdaşlıq etdiyini qeyd edib. Ali məktəbdə beynəlxalq tədris proqramlarına əsasən tədris aparıldığını qeyd edən rektor Böyük Britaniyanın Heriot-Vatt, ABŞ-ın Corc Vaşinqton universitetləri, İsveçrənin Cenevrə Biznes Məktəbi ilə sıx əməkdaşlıq edildiyini, tələbə və təcrübə mübadiləsi həyata keçirildiyini bildirib. E.Qasımov ali məktəbin tarixi, fəaliyyət istiqamətləri, yeniliklər, professor-müəllim heyəti, eyni zamanda, tələbələrin uğurları haqqında da qonaqlara ətraflı məlumat verib.

O, həmçinin Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən, bu il Bakı Ali Neft Məktəbinin yüksək bal toplayan 23 tələbəsinin Prezident təqaüdünə layiq görüldüyünü diqqətə çatdırıb.

Rektor Yuqorsk Dövlət Universiteti ilə qarşılıqlı əlaqələrin bundan sonra daha da genişlənəcəyinə əminliyini ifadə edib.

Yuqorsk Dövlət Universitetinin rektoru Tatyana Kaminskaya səmimi qəbul üçün təşəkkür edərək iki tərəfli əlaqələrin inkişaf etdirilməsinə marağı olduqlarını bildirib. Eyni zamanda o, perspektivdə birgə tələbə-müəllim mübadiləsini, tədqiqatların aparılmasını zəruri hesab etdiyini vurğulayıb.

"İnnovasiyaların tətbiqi əsas prioritet olan universitetimiz Rusiya Federasiyası Hökumətinin əmri ilə 2001-ci ildə yaradılıb. Hazırda Yuqorsk Rusiyanın ən gənc dövlət universitetlərindən biridir. Əsas vəzifəmiz bölgədəki yüksək texnologiyalar sahələrinin mürəkkəb problemlərini həll etmək üçün təhsil və tədqiqatlar aparmaqdır. Universitetimiz hər il 2 mindən çox mütəxəssis yetişdirir", - deyə T.Kaminskaya məlumat verib.

Görüşdə təhsil və elm sahələri üzrə qarşılıqlı fəaliyyətə dair ikitərəfli Əməkdaşlıq Sazişinin imzalanması qərara alınıb.

**Zamin Məmmədov,**
**"İki sahil"**

# BSU-da Rusiya universitetləri ilə əməkdaşlıq məsələləri müzakirə olunub

Oktyabrın 11-də Bakı Slavyan Universitetinin (BSU) rektoru, professor Nurlana Əliyeva 13-cü Azərbaycan Beynəlxalq Təhsil Sərgisində iştirak edən Moskva Politexnik Universitetinin Beynəlxalq inteqrasiya və xarici tələbələrlə iş üzrə idarəsinin rəisi İrina Ivanova, A.N.Kosıgin adına Rusiya Dövlət Universitetinin Dizayn institutunun direktoru Yekaterina Qurova, Kazan Federal Universitetinin Beynəlxalq fəaliyyət üzrə dekan müavini Liliya Yaxutova, Cənub Federal Universitetinin İnformasiya texnologiyalarının təhlükəsizliyi kafedrasının müdiri Yevgeni Abramova görüşüb. Görüşdə Tədris işləri üzrə

rektor Beynəlxalq əlaqələr şöbəsinin müdiri Nərmin Quliyeva iştirak ediblər.

BSU-nun rektoru, professor Nurlana Əliyeva qonaqları salamlayıb və onları rəhbərlik etdiyi ali təhsil müəssisəsində görməkdən məmnuniyyət duyduğunu bildirib. Rektor BSU-nun yaranma tarixi, fakültələri, ixtisasları, tədris prosesi, professor-müəllim heyəti, iştirak etdiyi yerli və beynəlxalq layihələr, xarici əlaqələri, universitetdə fəaliyyət göstərən tədris-mədəniyyət mərkəzləri, BSU-nun xarici ölkələrdəki Azərbaycan dili və mədəniyyət mərkəzləri barədə ətraflı məlumat verib. Rektor qeyd edib ki, BSU təhsil və mədəniyyət

kələrin elmi, mədəni, mənəvi fəaliyyətlərini öyrənir və tədris edir. BSU yalnız Azərbaycanda deyil, Qafqazda ən böyük və nüfuzlu rusistika mərkəzi sayılır. Bu ali məktəbdə bütövlükdə region üçün nadir sayıla biləcək ixtisaslar üzrə mütəxəssislər hazırlanır. BSU çoxprofilli ali məktəbdir.

Moskva Politexnik Universitetinin Beynəlxalq inteqrasiya və xarici tələbələrlə iş üzrə idarəsinin rəisi İrina Ivanova, A.N.Kosıgin adına Rusiya Dövlət Universitetinin Dizayn institutunun direktoru Yekaterina Qurova, Kazan Federal Universitetinin Beynəlxalq fəaliyyət üzrə dekan müavini Liliya Yaxutova, Cənub Federal Universitetinin İnformasiya texnologiyalarının təhlükəsizliyi kafedrasının müdiri Yevgeni Abramov təmsil etdikləri ali təhsil müəssisələrinin tədris prosesi və elmi-tədqiqat fəaliyyəti haqqında məlumat veriblər. Xüsusi vurğulandı ki, BSU-nun 13-cü Azərbaycan Beynəlxalq Təhsil Sərgisində təqdim etdiyi zəngin stend onlarda çox xoş təəssürat yaradıb.

Görüşdə elm və təhsil sahəsində gələcək əmək-